**Aydan Mahmud qızı Zərbəliyeva**

**UOT: 330 34; 330.35; JEL: L39.**

# Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı perspektivləri: kreditləşmə mexanizminin təkmilləşdirilməsi kontekstində

***Xülasə***

*Məqalədə Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı perspektivləri ilə bağlı məsələlər, bu sektorun kreditləşməsi mexanizmlərinin təkmilləşdirilməsi imkanları araşdırılmışdır. Bu məqsədlə kiçik və orta sahibkarlıq sektorunun respublikamızın, iqtisadi inkişafında iştirak imkanları təhlil edilmişdir. Təhlillərin nəticəsi olaraq KOS subyektlərində həyata keçirilmiş investisiya qoyuluşları ilə ölkə üzrə yaradılmış ümumi əlavə dəyər arasında, eləcə də Sahibkarlığın İnkişafı Fondunun və digər mənbələr üzrə verilmiş kreditlərlə qeyri-neft ÜDM-i arasında korrelyasiya-reqressiya əlaqələri müəyyən edilmişdir.*

***Açar sözlər:*** *kiçik və orta sahibkarlıq sektoru, KOS subyektlərində yaradılmış əlavə dəyər, əsas kapitala investisiya, kreditləşmə mexanizmi, məhsul buraxılışı, qeyri-neft ümumi daxili məhsulu.*

**Giriş.**

2014-cü ildə baş verən devalvasiya ilə əlaqədar yaranan problemlər Azərbaycan iqtisadiyyatının diversifikasiya qabiliyyətinin yüksəldilməsinin bir zərurət olduğunu sübut etdi. Bu kontekstdə dövlət qeyri-neft sektorunun inkişafı məsələsini prioritet bir məsələ olaraq müəyyən etmişdir. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmişdir və bu istiqamətlərə uyğun olaraq ümumilikdə, milli iqtisadiyyatımızın 11 sektorunu əhatə edən 12 strateji yol xəritəsi hazırlanmışıdır ki, bunlardan biri də "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"dir. Bu xəritədə 2016-2020-ci illər ərzində respublikamızda kiçik və orta sahibkarlığın inkişaf strategiyasını özündə ehtiva edən 5 strateji hədəf, onların reallaşdırılması ilə bağlı 21 prioritet istiqamət və bu məqsədlə həyata keçiriləcək tədbirlər konkretləşdirilmişdir. Bu sənəd əsasında respublikamızda kiçik və orta sahibkarlıq sektorunun inkişaf etdirilməsi və gücləndirilməsi ümumilikdə, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın rəqabət qabliyyətinin yüksəldilməsi, onun diversifikasiyasının gücləndirilməsi və dərinləşdirilməsi, sosial-iqtisadi inkişafın dövlət təminatı infrastrukturunun formalaşdırılması və təkmilləşdirilməsi kontekstində dayanıqlı və davamlı inkişafının təmin edilməsinin strateji əhəmiyyətli prioritetlərindən biri olaraq müəyyən edilmişdir. Bu məqsədlə ölkəmizin dayanıqlı və davamlı inkişafının təmin edilməsi istiqamətində kiçik və orta sahibkarlıq sektorunun potensial iştirak imkanlarının müəyyən edilməsi və onların reallaşdırılması istiqamətlərində müvafiq prioritetlərə uyğun sistemli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

**Kiçik və orta sahibkarlıq sektorunun inkişafına stateji yanaşma**

Respublikamızda KOS sektorunun inkişaf perspektivləri ilə əlaqədar üç dövrü əhatə edən 3 mərhələli strateji inkişaf strategiyası müəyyənləşdirilmişdir. Bu inkişaf qısa, orta və uzunmüddətli perspektiv üzrə müəyyənləşdirilmişdir (şəkil 1).



*©Aydan Mahmud qızı Zərbəliyeva Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, doktorant. Email: zerbeliyeva91@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Şəkil 1.**

**Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq sektorunun strateji inkişafının mərhələləri.**




**Mənbə:** [1] **Müəllif tərəfindən tərtib edilmişdir.**

Yuxarıda qeyd olunduğu kimi KOS-un inkişaf perspektivlərinin yüksək olması dövlətin növbəti on illikdə qarşısına qoyduğu geniş miqyaslı tədbirlər kompleksi sistemində xüsusi yer almaqla, həm də iqtisadi inkişafın təbii dinamikasından irəli gəlir.

**Ölkə iqtisadiyyatına kiçik və orta sahibkarlıq sektorunun töhfəsi**

Sirr deyil ki, bu gün respublikamızda qeyri-neft sektorunda fəaliyyət göstərən subyektlərin tərkibində KOS subyektlərinin xüsusi çəkisi daha çoxdur. Lakin bir sıra iqtisadi göstəricilərə baxdıqda onların bu sektorda payının elə də yüksək olmadığının şahidi ola bilərik. Belə ki, kiçik sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyər 2007-ci ildə ölkə üzrə cəmi əlavə dəyərin 1,6%-ni təşkil etdiyi halda, o, qeyri-neft sektorunda yaradılan əlavə dəyərdə 4,2%-lik paya malik olmuşdur. Eyni göstərici üzrə təhlili davam etdirsək, 2017-ci ildə kiçik sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyərin ölkə üzrə cəmi əlavə dəyərin həcmində payının 4,7%, qeyri-neft sektorunda yaradılan əlavə dəyərdə isə 7,6% paya malik olduğunun şahidi ola bilərik (şəkil 2).



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

**Şəkil 2.**

**Ölkə iqtisadiyyatında kiçik sahibkarlıq subyektlərinin payı (%)**




**Mənbə: [10] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.**

Göründüyü kimi bu göstərici üzrə müəyyən inkişaf müşahidə olunsa da, bu tendensiya çox zəif çalarlara malikdir. Deməli, prioritet perspektiv kimi KOS subyektlərinin əlavə dəyər yaratma strukturunun yenilənməsi və onun payının yüksəldilməsi istiqamətində tədbirlər hazırlanaraq həyata keçirilməlidir. KOS subyektlərində yaradılmış ümumi əlavə dəyər ölkə üzrə ümumi əlavə dəyərin 2015-ci ildə 7,5%-ni, 2016-cı ildə isə 6,4%-ni, 2017-ci ildə isə 5,9%-ni təşkil etmişdir. Eyni zamanda görə bilərik ki, KOS subyektlərində yaradılmış ümumi əlavə dəyər qeyri-neft sektoru üzrə ümumi əlavə dəyərin 2015-ci ildə 10,9%-ni, 2016-cı ildə 9,9%-ni, 2017-ci ildə isə 9,5%-ni təşkil edir (cədvəl 1).

**Cədvəl 1.**

**Ölkə iqtisadiyyatında KOS subyektlərinin payı (%)**

| | **Cəmi KOS subyektləri üzrə** | | o cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | **Kiçik sahibkarlıq subyektləri üzrə** | | **Orta sahibkarlıq subyektləri üzrə** | |
| | **2016** | **2017** | **2016** | **2017** | **2016** | **2017** |
| ***Əlavə Dəyər*** | 6,4 | 5,9 | 5,2 | 4,7 | 1,2 | 1,2 |
| ***o cümlədən qeyri-neft sektoru üzrə*** | 9,9 | 9,5 | 8,1 | 7,6 | 1,8 | 1,9 |
| ***İşçilərin sayı*** | 20,4 | 20,8 | 7,3 | 7,3 | 13,1 | 13,5 |
| ***o cümlədən qeyri-neft sektoru üzrə*** | 20,9 | 21,3 | 7,5 | 7,5 | 13,4 | 13,8 |
| ***Əsas kapitala investisiyalar*** | 18 | 18,9 | 11,6 | 11,8 | 6,4 | 7,1 |
| ***o cümlədən qeyri-neft sektoru üzrə*** | 39,8 | 36,9 | 25,7 | 23,1 | 14,1 | 13,8 |
| ***Məhsul buraxılışı*** | 6,6 | 6,0 | 5,3 | 4,7 | 1,3 | 1,3 |
| ***o cümlədən qeyri-neft sektoru üzrə*** | 9,0 | 8,6 | 7,2 | 6,7 | 1,8 | 1,9 |

**Mənbə: [2, s.8]**

Cədvəldən göründüyü kimi, həm əlavə dəyərin ümumi həcmində, həm də qeyri-neft sektorunda yaradılan əlavə dəyərin həcmində KOS subyektlərinin payı göstəricisində son illər azalma meyli müşahidə edilir. Onu da qeyd edək ki, bu azalma kiçik sahibkarlıq subyektləri üzrə təxminən 0,5 faiz bəndi təşkil etdiyi halda, orta sahibkarlıq subyektləri üzrə bir o qədər dəyişməmiş, hətta 0,1 faiz bəndi artım olmuşdur. Kiçik sahibkarlıq subyektləri həm yaradılmış əlavə dəyərin ölkə üzrə ümumi əlavə dəyərdə payı, həm əsas kapitala investisiyalar, həm də məhsul buraxılışı göstəriciləri üzrə orta sahibkarlıq subyektlərini qabaqlamışlar. KOS subyektlərində çalışan işçilərin cəmi məşğulluqdakı payına görə isə orta

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sahibkarlıq subyektləri öndə olmuşdur. Məhz bu rəqəmlər və onların təhlilindən belə nəticəyə gəlmək olar ki, hər iki il üzrə ölkə üzrə cəmi məşğulluqda kiçik sahibkarlıq subyektlərinin payı orta sahibkarlıq subyektlərinin payına nəzərən daha az olsa da, onların yaratdığı əlavə dəyərin ölkə üzrə yaranmış əlavə dəyərin strukturunda payı daha yüksək olmuşdur. Bu isə o deməkdir ki, kiçik sahibkarlıq subyektlərində əmək məhsuldarlığı orta sahibkarlıq subyektləri ilə müqayisədə daha yüksək və keyfiyyətli olmuşdur. Daha dəqiq desək, 2017-ci ildə ölkə üzrə cəmi işçilərin 7,3%-nin çalışdığı kiçik sahibkarlıq subyektlərində ölkə üzrə ümumi əlavə dəyərin 4,7%-i yaradıldığı halda, ölkə üzrə cəmi işçilərin 1,2%-nin çalışdığı orta sahibkarlıq subyektlərində ölkə üzrə ümimi əlavə dəyərin yalnız 1,2%-i yaradılmışdır.

Əsas kapitala yönəldilmiş investisiyaların ümumi həcmində KOS subyektlərinin payı 2016-ci ildə 17,9%-dən bir qədər çox olduğu halda, 2017-ci ildə bu nisbət 19%-ə yüksəlmişdir. Qeyd edilən illərdə kiçik sahibkarlıq subyektlərində əsas kapitala yönəldilən investisiyaların həcmi və nisbət göstəriciləri də orta sahibkarlıq subyektləri ilə müqayisədə yüksək olmuşdur. Buna baxmayaraq ölkə üzrə 2016-2017-ci illərdə yaradılmış əlavə dəyərin təxminən 6-6,4%-i KOS subyektlərində yaranmışdır. Bu isə belə qənaətə gəlməyə imkan verir ki, KOS subyektlərində həyata keçirilmiş investisiya qoyuluşlarının effektivliyi zəif olmuşdur. KOS subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyaların strukturunda tikinti sektoru üstünlük təşkil etmişdir. Bu sahədə investisiyaların payı ümumi həcmdə 2016-cı ildə 46,3% olduğu halda, 2017-ci ildə bu nisbət 35,9%-ə enmişdir. Sənayedə əsas kapitala investisiyaların həcmi və xüsusi çəkisi isə, əksinə artmışdır və illər üzrə uyğun olaraq 10,7%-dən 13,5%-dək yüksəlmişdir (cədvəl 2).



**Cədvəl 2.**

**KOS subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiya**

| | Məbləğ, mln. manat | | Yekuna nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | **2016** | **2017** | **2016** | **2017** |
| İqtisadi fəaliyyət növləri üzrə cəmi | **2830,2** | **3298,6** | **100** | **100** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | 324,6 | 570 | 11,5 | 17,3 |
| **Sənaye** | 340,2 | 445,4 | 10,7 | 13,5 |
| **Tikinti** | 1309,6 | 1185,7 | 46,3 | 35,9 |
| **Ticarət, nəqliyyat vəsaitlərinin təmiri** | 152,6 | 253,6 | 5,4 | 7,7 |
| **Nəqliyyat və anbar təsərrüfatı** | 127,8 | 73,7 | 4,5 | 2,2 |
| **Turistlərin yerləşdirilməsi və içtimai iaşə** | 86,5 | 213,8 | 3,0 | 6,5 |
| **İnformasiya və rabitə** | 89,6 | 121 | 3,2 | 3,7 |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | --- | --- | --- | --- |
| **Təhsil** | 132,1 | 75,4 | 4,7 | 2,3 |
| **Səhiyyə və sosial xidmətlər** | 91,9 | 147,6 | 3,2 | 4,5 |
| **Digər sahələr** | 211,4 | 212,4 | 7,5 | 6,4 |

**Mənbə: [2, s.8].**

KOS subyektləri tərəfindən tikinti əsas kapitala yönəldilən investisiyaların məbləği ümumilikdə respublikamızda bu sektora yatırılan investisyaların 2016-cı ildə 46,24%-i, 2017-ci ildə isə 43,2%-i həddində olmuşdur. Sənaye sektoru ilə yanaşı, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, turistlərin yerləşdirilməsi və ictimai iaşə, ticarət, nəqliyyat vəsaitlərinin təmiri sahələrində əsas kapitala investiyaların həcmində nəzərəçarpacaq dəyişikliklər olmuşdur. Belə ki, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində bu artım 5,8 fazi bəndi, turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda 3,5 faiz bəndi, ticarət, nəqliyyat vəsaitlərinin təmiri sahələrində 2,3 faiz bəndi, əhaliyə səhiyyə və sosial

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xidmətlərin göstərilməsi sahəsində isə 1,3 faiz bəndi təşkil etmişdir. Digər sahələrdə, o cümlədən təhsil, nəqliyyat və anbar təsərrüfatı sahələrində isə azalma baş vermişdir. Kənd təsərrüfatının ölkə iqtisadiyyatında önəmini və KOS subyektlərinin fəaliyyət xarakteri etibarilə bu sahəyə daha çox uyğun olmasını nəzərə alsaq, bu sahəyə investisiya yatırımlarının artırılması üçün onların maliyyə mənbələrinə çıxış imkanlarının yüksəldilməsinin daha perspektivli bir iqtisadi siyasət olacağından xəbər verir.

**Kiçik və orta sahibkarlıq sektorunun inkişafında kreditləşmənin təsirinin qiymətləndirilməsi**

Sadəlik üçün kiçik sahibkarlıq subyektlərində əsas kapitala investisiyaları *x* ilə, ölkə üzrə ümumi əlavə dəyəri isə *y* ilə işarə edək. Bu dəyişənlərin statistik göstəricilərindən istifadə etməklə hesablamalar aparıldıqdan sonra bu dəyişənlər arasında korrelyasiya əmsalının 0,78-ə bərabər olduğu əldə olunmuşdur. Göründüyü kimi bu əmsal “+1”-ə kifayət qədər yaxın bir ədəddir. Bu isə o deməkdir ki, kiçik sahibkarlıq subyektlərində əsas kapitala investisiyalar ilə ölkə üzrə ümumi əlavə dəyər göstəricisi arasında düz xətli əlaqənin olduğunu qəbul etmək olar. Yəni kiçik sahibkarlıq subyektlərində əsas kapitala investisiyalar artdıqca ölkə üzrə ümumi əlavə dəyərin səviyyəsi də yüksələcəkdir. Bu isə KOS subyektlərinin perspektivinin yüksək olduğunu göstərir. Qeyd olunun təhlilin realizasiyası üçün isə adətən reqressiya analizindən istifadə olunur. Reqresiya analizi bir dəyişənin dəyişməsinin digər bir dəyişənə təsirini konkret bir ədədlə ifadə etməyə imkan verən statistik təhlil metodudur. [7,s.35]. Qiymətləndirmənin keyfiyyətinin yüksəldilməsi üçün neftin dünya bazar qiymətindən də istifadə olunacaqdır. Çünki məlumdur ki, neft faktoru Azərbaycan iqtisadiyyatında əhəmiyyətli faktorlardan biridir. Bu məqsədlə ABŞ federal ehtiyat mərkəzinin tədqiqatlar mərkəzinin məlumatlarından brend markalı neftin bir barelinin qiymətləri [12] (dollarla) toplanılmışdır. Qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

$$\ln Y = 7.61 + 0.34 \ln X_1 + 0.22 \ln X_2 + \varepsilon \quad (1)$$

p = (0.00) (0.02) (0.18)

Burada, Y – ölkə üzrə ümumi əlavə dəyər; $X_1$ – kiçik sahibkarlıq subyektlərində əsas kapitala investisiyalar; $X_2$ – brend markalı neftin bir barelinin qiymətidir.

(1)-də qiymətləndirilmiş reqresiya tənliyində əldə olunmuş əmsallar statistik əhəmiyyətli alınmışdır. Bundan başqa asılılığın keyfiyyətini xarakterizə edən determinasiya ($R^2$ = 0.77) və durbin-vatson əmsallarının (DW=1.86) qiymətləri də kifayət qədər etibarlı hesab edilə bilər. Beləliklə, araşdırmalar nəticəsində belə qənaətə gələ bilərik ki, 2007-2017-ci illəri əhatə edən dövrdə kiçik sahibkarlıq subyektlərində əsas kapitala investisiyaların 1% yüksəlməsi ölkə üzrə ümumi əlavə dəyərin 0,34% artmasına səbəb olmuşdur. Bu kifayət qədər əhəmiyyətli bir rəqəmdir və bu sahəyə gələcəkdə yönəldiləcək investisiyaların perspektivli hesab olunmasını əsaslandırmağa imkan yaradır. Hələ 1992-ci ildə Əsasnaməsi təsdiq edilmiş və bu gün də uğurla fəaliyyət göstərən Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri ölkəmizdə kiçik və orta sahibkarlılq sektorunun inkişaf istiqamətində mühüm əhəmiyyət daşıyır. Bu vəsaitlər sahibkarlığın inkişaf məqsədilə bir sıra layihələrin maliyyələşdirilməsinə yönəldilir [13]: aqroparkların yaradılması; bu və ya digər kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisələrinin (o cümlədən kiçk və orta ölçülü) yaradılması; müasir istixana komplekslərinin yaradılması; intensiv bağçılıq (üzüm, alma, nar, zeytun, badam və. s) və tingçilik təsərrüfatlarının yaradılması; müasir çörək istehsalı müəssisələrinin yaradılması; müasir suvarma sistemlərinin və tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması; informasiya texnologiyalarının və turizmin inkişafı; idxaləvəzləyici qida və qeyri-qida məhsullarının istehsalı və emalı müəssisələrinin yaradılması və s.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Bu gün respublikamızda Sahibkarlığın İnkişafı Fondunun (SİF) vəsaitləri hesabına sahibkarlıq subyektlərinə üç növ kreditlər verilir.

**Cədvəl 3.**

**Kreditlər və qeyri-neft ÜDM (milyon manat)**

| | SİF-nin kreditləri | | | İqtisadiyyata digər mənbə-lərdən kredit qoyuluşları | Qeyri-Neft ÜDM-i |
|---|---|---|---|---|---|
| | Kiçik həcmli kreditlər | Orta həcmli kreditlər | Böyük həcmli kreditlər | | |
| 2002 | 0,05 | 0,14 | 1,29 | 518,72 | 3693,90 |
| 2003 | 0,21 | 1,21 | 9,34 | 659,54 | 4447,60 |
| 2004 | 3,60 | 1,20 | 13,70 | 971,10 | 5242,50 |
| 2005 | 2,80 | 2,00 | 31,50 | 1404,6 | 6055,10 |
| 2006 | 1,10 | 2,30 | 86,70 | 2272,6 | 7630,00 |
| 2007 | 1,30 | 5,50 | 83,90 | 4591,1 | 10576,10 |
| 2008 | 0,70 | 3,40 | 83,70 | 7103,50 | 15197,30 |
| 2009 | 10,00 | 1,00 | 119,00 | 8277,5 | 16726,00 |
| 2010 | 17,60 | 1,00 | 96,50 | 9048,30 | 19179,00 |
| 2011 | 19,30 | 4,10 | 114,60 | 9712,30 | 23196,10 |
| 2012 | 28,30 | 6,40 | 183,30 | 12025,70 | 26864,40 |
| 2013 | 52,90 | 4,30 | 217,70 | 15148,00 | 30525,90 |
| 2014 | 63,90 | 7,50 | 223,60 | 18247,60 | 33195,90 |
| 2015 | 55,50 | 6,10 | 186,90 | 21481,90 | 34138,80 |
| 2016 | 22,90 | 8,90 | 157,70 | 16255,10 | 35951,10 |
| 2017 | 20,2 | 8,94 | 116,8 | 11757,8 | 40328,0 |

**Mənbə: [11; 13]**



İlk olaraq məqsədimiz həm SİF-nun vəsaitləri hesabına hər üç təsnifat üzrə verilmiş sahibkarlıq kreditlərilə, həm də digər mənbələr üzrə verilmiş kreditlərlə qeyri-neft ÜDM arasında reqresiya əlaqəsinə baxmaqdır. Lakin əlaqənin qiymətləndirilməsinə başlamamışdan qabaq statistik göstəricilərin qrafik təhlili həyata keçiriləcəkdir. Dəyişənlərin hər biri üçün qrafiklər şəkil 3-də verilib. Burada, "k_k" kiçik həcmli kreditləri, "k_k_s" trenddən təmizlənmiş kiçik həcmli kreditləri, "o_k" orta həcmli kreditləri, "o_k_s" trenddən təmizlənmiş orta həcmli kreditləri, "b_k" böyük həcmli kreditləri, "b_k_s" trenddən təmizlənmiş böyük həcmli kreditləri, "digər_k" digər mənbələr hesabına iqtisadiyyata yönəldilmiş kreditləri, "diger_k_s" trenddən təmizlənmiş digər mənbələr hesabına iqtisadiyyata yönəldilmiş kreditləri ifadə edirlər (şəkil 3). Şəkil 3-dən göründüyü kimi bütün dəyişənlərin orijinal dinamikası trend amilinin təsiri altında həmişə yuxarıya yönəlmişdir (bax şəkil 3, sol tərəfdə verilmiş qrafiklər). Belə olan halda iqtisadi dəyişənlərin orijinal göstəriciləri uzun müddətli əlaqələrin qiymətləndirilməsində istifadə oluna bilmirlər. Bu problemin aradan qaldırılması üçün dəyişənlər HP filtirinin [8, s.11] köməyilə trend amilinin təsirindən təmizlənmişdir (bax şəkil 3, sağ tərəfdə verilmiş qrafiklər). Əvvəlki bölmədə reqresiya əlaqəsinin qiymətləndirilməsi məsələləri və onun nəzəri xüsusiyyətləri barədə müzakirə aparılmışdır. Burada birbaşa aparılmış hesablamaların nəticələri üzrə analitik təhlil həyata keçiriləcəkdir.

**Şəkil 3.**

**Dəyişənlər və onların trenddən təmizlənmiş dinamikaları**



Müəyyən olunmuşdur ki, kiçik sahibkarlıq kreditlərinin qeyri-neft ÜDM-ə təsirini xarakterizə edən təsir əmsalı 68.7-ə bərabərdir. Qeyd edək ki, bu əmsal 0.05 əhəmiyyətlilik səviyyəsində statistik etibarlıdır. Deməli, 2002-2017-ci illəri əhatə edən dövrdə kiçik sahibkarlıq kreditlərinin bir vahid yüksəlməsi qeyri-neft ÜDM-nun təxminən 69 vahid yüksəlməsinə səbəb olmuşdur.



**Nəticə**

Göründüyü kimi kiçik və orta sahibkarlıq sektoruna yönəldilən kiçik və orta həcmli kreditlərin məbləği iri həcmli kreditlərin həcmindən çox aşağı səviyyədə olmuşdur. Doğrudur, adından da göründüyü kimi kiçik və orta həcmli kreditlər ayrılıqda daha az olmalıdır. Lakin əgər, kreditləşdirilən KOS subyektlərinin sayı kifayət qədər çox olsaydı, bu fərq bu qədər kəskin olmazdı. Əslində, iri sahibkarlıq subyektlərinin kreditləşdirilməsi də zəruridir. Yəni onlar da iqtisadiyyatın bir parçasıdır. Ancaq nəzərə almaq lazımdır ki, iri sahibkarlıq subyektləri KOS subyektlərinə nisbətən maliyyə mənbələrinə daha asan çıxış imkanlarına malikdirlər. Bunu nəzərə alaraq dövlət vəsaitləri hesabına iqtisadiyyata kreditlərin yönəldilməsi zamanı KOS subyektlərinin kredit əlçatanlığının yüksəldilməsi prioritet kimi qarşıya qoyulmalıdır. Ümumiyyətlə, təkmil krediləşmə mexanizminin yaradılması qeyri-neft sektorunun inkişafında KOS-un potensialından daha geniş istifadə edilməsinə, onun makroiqtisadi inkişafın və dayanıqlığın təmin edilməsindəki rolunun güclənməsinə imkan verir ki, bu da kiçik və orta sahibkarlıq sektorunun yüksək perspektivlərindən xəbər verir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2016, №12.
2. Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı, 2017, 193 s.
3. Abbasov C. Ekonometrika. Dərs vəsaiti. Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 2017.
4. Həsənli Y. Ekonometrikaya giriş. Dərslik. Bakı, 2008, 237 s.
5. Cansız M. Türkiyədə KOBİLER ve KOSGEB. Sosyal Sektörlər və Koordinasiyon Genel Müdürlügü, Uzmanlıq tezi, Ankara, 2008.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

6. Alessandra De Chiara, Antonio Minguzzi. "Success Factors in SMEs' Internationalization Processes: An Italian Investigation. (Global Perspective)", Journal of Small Business Management. April, 2002, pp. 144-153.
7. Manski C.F. Regression. Journal of Economic Literature. Mar., 1991. Vol. 29, No. 1, pp. 34.
8. Robert J. Hodrick, Edward C. Prescott (). "Postwar U.S. Business Cycles: An Empirical Investigation". Journal of Money, Credit and Banking.1997.Vol. 9, No. 1, pp.1-16.
9. Staley, E., Morse, R. Modern Small-Scale Industry for Developing Countries. McGraw-Hill, 1965.
10. https://www.stat.gov.az/source/entrepreneurship/
11. https://www.stat.gov.az/source/system_nat_accounts/
12. https://fred.stlouisfed.org/series/DCOILBRENTEU#0
13. http://edf.gov.az

***Айдан Махмуд гызы Зарбалиева***

***Перспективы развития малого и среднего предпринимательства в Азербайджанской Республике: в контексте совершенствования механизма Кредитования***

***Резюме***

*В статье рассматриваются вопросы, связанные с перспективами развития малого и среднего бизнеса в Азербайджанской Республике и возможности совершенствования механизма кредитования этого сектора. С этой целью были проанализированы возможности участия малого и среднего бизнеса в экономическом развитии нашей республики. В результате анализа были определены отношения корреляции - регрессии между инвестиционным вкладом, осуществленном в КОС субъектах и общей добавленной стоимостью, созданной по всей стране, а также кредитами Фонда Развития Предпринимательства и другими источниками и ненефтяного ВВП.*

***Ключевые слова:*** *сектор малого и среднего предпринимательства, добавленная стоимость, созданная в КОС субъектах, инвестиция в основной капитал, механизм кредитования, ненефтяной ВВП.*

***Aydan Maxmud Zarbaliyeva***

***Perspectives of Small And Medium Entrepreneurship Development in the Republic Of Azerbaijan: crediting mechanism in the Context of Improvement***

***Summary***

*The issues related to the prospects for the development of small and medium-sized businesses in the Republic of Azerbaijan and the opportunities for improving the lending mechanism of this sector are reviewed in the article. For this purpose, the opportunities for participation of small and medium-sized businesses in the economic development of our republic were analyzed. As a result of the analysis, the relations of correlation – regression were determined between investments made in the SME subjects and general added value created across the country, as well as the loans of the Entrepreneurship Development Fund and other sources and non-oil GDP.*

***Keywords:*** *Small and Medium Entrepreneurship Sector, added value created in the SMEs subjects, investment in main Capital, lending mechanism, non-oil GDP.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 17.02.2020.***
***Çapa qəbul olunub: 21.02.2020.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*